**Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın**

# Q Ə R A R I

Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya (bundan sonra "Komissiya") 2005-ci il 2 may tarixdə keçirilmiş iclasında müzakirə edilmiş məsələlər üzrə aşağıdakıları **qərara alır:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 sentyabr tarixli Sərəncamına əsasən Kîrrupsiyaya qarşı mübarizə üzrə Dövlət Prîqramının (2004-2006-cı illər) yerinə yetirilməsi ilə əlaqədar məlumatlar Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin (əlavə olunur).

2 Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın Katibliyinin Əsasnaməsi və Komissiyanın 2005-ci il üçün Fəaliyyət Planı təsdiq olunsun (əlavə olunur).

3. Dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə:

3.1. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramına və dövlət qulluğu haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət orqanları bütün sahələrdə dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsini təmin etsinlər və görülmüş tədbirlər barədə 3 ay müddətində Komissiyaya məlumat təqdim etsinlər;

3.2. Dövlət orqanları dövlət qulluğunda, xüsusilə də dövlət qulluqçularının şəxslərlə daimi əlaqədə olduğu sahələrdə vəzifələrin icrasının rotasiya prinsipi üzrə həyata keçirilməsini təmin etsinlər;

3.4. Azərbaycan Respublikasının Nazirlər Kabinetindən xahiş edilsin ki, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə mərkəzi icra hakimiyyəti orqanlarının nümunəvi əsasnaməsinin layihəsini hazırlasın;

3.5. Azərbaycan Respublikasının Milli Məclisindən xahiş edilsin ki, "Dövlət qulluqçularının etik davranış kodeksi"nin qəbul edilməsi işini sürətləndirsin;

3.6. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası 2005-2006-cı il tədris ilindən etibarən öz təhsil proqramlarına dövlət qulluqçularının etik davranış məsələləri və korrupsiyaya qarşı mübarizə ilə bağlı xüsusi proqramlar daxil etsin və həyata keçirilmiş tədbirlər haqqında Komissiyaya məlumat təqdim etsin;

3.7. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramına uyğun olaraq ali və orta ixtisas məktəbləri, iõtisasartırma və tədris mərkəzlərində kîrrupsiya ilə mübarizə haqqında maarifləndirmə kurslarının təşkil edilməsi üçün tədbirlər görsün və bu tədbirlər haqqında Komissiyaya məlumat təqdim etsin.

4. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması məqsədi ilə:

4.1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramına uyğun olaraq normativ hüquqi aktların vahid internet elektron bazasının yaradılması işini sürətləndirsin və görülmüş tədbirlər barədə 3 ay müddətində Komissiyaya məlumat təqdim etsin;

4.2. Azərbaycan Respublikasının Milli Məclisindən xahiş edilsin ki:

4.2.1. "İnformasiya azadlığı haqqında" və "İnzibati icraat haqqında" qanunların qəbul edilməsi işini sürətləndirsin;

4.2.2.Qanun layihələrinin ictimai müzakirəyə təqdim edilməsi işinin təkmilləşdirilməsi məqsədi ilə Milli Məclisdə müzakirə edilən qanun layihələrini Milli Məclisin internet saytında yerləşdirsin və bu layihələr üzrə təklif və rəylərin qəbul edilməsi işini təşkil etsin.

5. Korrupsiyaya qarşı mübarizədə maarifləndirmə və cəmiyyəti korrupsiyaya qarşı mübarizə ilə bağlı geniş məlumatlandırmaq məqsədi ilə korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının qanunvericilik aktları və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumatların rəsmi dövlət qəzetlərində və Komissiyanın internet saytında dərc edilməsi işi davam etdirilsin.

6. Komissiyanın Katibliyi yuxarıda göstərilən məsələlər üzrə Komissiyanın tövsiyyələrinin həyata keçirilməsi vəziyyəti haqqında Komissiyaya məlumat təqdim etsin.

7. Komissiyanın 2005-ci il 2 may tarixdə keçirilmiş üçüncü iclası ilə bağlı mətbuatda məlumat dərc edilsin.

**Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın sədri** **R.Mehdiyev**

Bakı şəhəri, 02 may 2005-ci il
№ 3